# Azərbaycanda koronavirusla bağlı təhlükənin qarşısının alınması məqsədilə ciddi tədbirlər həyata keçirilir



***Bu gün haqqında çox danışılan və insanlarda ciddi narahatlıq doğuran koronavirus latınca tac, çələng mənasını daşıyır. Bu ad virusa tacabənzər görüntüsü ilə əlaqədar verilib. Koronavirus ilk dəfə ötən əsrin 60-ci illərində toyuqlarda infeksion bronxit virusu kimi müşahidə edilib. Sonra virusun digər növləri də aşkarlanıb. Yeni koronavirus isə ötən il dekabrın 29-da Çinin Uhan şəhərindəki dəniz məhsulları və canlı heyvanlar satılan mağazada işləyən dörd nəfərdə üzə çıxıb. Xəstələrdən alınan nümunələrin analizi nəticəsində virusun SARS və MERS kimi koronavirus qrupundan olduğu dəqiqləşib və virusa"Yeni koronavirus-2019" (2019-nCoV) adı verilib.***

Qeyd edim ki, Azərbaycan Prezidenti cənab İlham Əliyevin tapşırığına əsasən xəstəliyin ölkəmizin ərazisində yarada biləcəyi təhlükənin qarşısını almaq məqsədilə son günlər ciddi tədbirlər həyata keçirilir, əhali görülən işlər haqqında televiziya və digər mətbuat vasitələri ilə mütəmadi məlumatlandırılır, xəstəliyin simptomları, insanların görməli olduğu qabaqlayıcı, profilaktik tədbirlər diqqətə çatdırılır.

Ümumdünya Səhiyyə Təşkilatı hazırda Azərbaycanın aidiyyəti qurumları ilə müntəzəm olaraq təmasdadır. Ölkədə koronavirusa yoluxma hallarının müəyyənləşdirilməsi üçün bütün imkanlar, o cümlədən diaqnostik alətlər və tibbi ləvazimatlar isə yetərincədir.

Qeyd edim ki, xəstəliyin simptomları soyuqdəymənin və ya qripin əlamətlərini xatırladır – halsızlıq, baş ağrısı, öskürək, bədən hərarətinin yüksəlməsi və s. Daha çox yaşlı və immuniteti zəif insanlara təsir göstərir. Bunun inkubasiya dövrü 14 gündür. Məhz həmin müddət ərzində onun sağlam insana keçmə ehtimalı qalır.

Xəstəliyin ən geniş yayılmış simptomu isə qızdırmadır. Virusa yoluxanlar, həmçinin əzələ ağrısı və tənəffüs problemindən şikayət edirlər. Diareya, ürək bulanması kimi hallar da müşahidə olunur. Əsasən damcı yolu ilə, insan öskürəndə və asqıranda keçir. Hətta istənilən çirkli yerə toxunduqda virusa yoluxma ehtimalı mümkündür. Buna görə də çirkli yerlə təmasdan sonra əlin ağıza, buruna və ya gözə vurulması təhlükəlidir.

Koronavirusların simptomları axıntılı burun, öskürək, boğaz ağrısı və bəzən hərarət kimi hər hansı yuxarı tənəffüs yoluxmasına bənzəyir. Xəstəlik laboratoriya müayinələri, o cümlədən burun və boğazdan gələn axıntılar, qan analizləri nəticəsində aşkar edilir.

Koronavirus mikroorqanizmlər ailəsinin bir növüdür. Onun törətdiyi fəsadlar qrip infeksiyasından daha ağır gedir, tənəffüs yolları və ağciyər zədələnir. Əslində isə koronavirusa yoluxma zamanı ölüm göstəricisi qrip xəstəliyində olandan o qədər də yüksək deyil. Ümumiyyətlə, infeksion xəstəliklərdən qorunmaq üçün gigiyenik qaydalara ciddi əməl etmək vacibdir. Qrip xəstələri öskürərkən və ya asqırarkən ağız və burunlarını mütləq örtməlidirlər.

Son zamanlar virus infeksiyası əleyhinə hər kəs özünəməxsus üsullardan istifadə edir. Bir həkim olaraq, mən bütün bunların əvəzinə sağlam qidalanaraq immuniteti gücləndirməyi daha çox məsləhət görürəm.

Profilaktik tədbirlərə də fikir vermək hər bir kəsin sağlamlığının qeydinə qalmaq borcuna çevrilməlidir. Ona görə də aşağıdakı qabaqlayıcı tədbirlərə əməl edilməsi vacibdir: xəstəliyin müşahidə olunduğu ölkələrə səfərlər təxirə salınmalıdır. Kəskin respirator virus infeksiyalarına yoluxmuş insanlarla təmasdan çəkinməli, əllər tez-tez yuyulmalıdır. Xəstə insanlarla və onların əşyaları ilə təmasdan sonra bu prosedura mütləq şəkildə riayət olunmalıdır.

Sosial şəbəkələrdə koronavirusdan qorunmaq üçün müxtəlif məsləhətlər verilir, o cümlədən buruna perekis tökmək üsulu göstərilir. Fikrimcə, həmin üsuldan özbaşına istifadə etmək məsləhət deyil. Bundan əvvəl həkimlə məsləhətləşmək lazımdır, çünki perekis qıcıqlanma yarada bilən bir məhluldur. Gün ərzində əlləri və üzü sabunla yumaq daha səmərəli üsuldur. Sabun məhlulu ilə burun dəliklərini yumaq, alternativ variant kimi qorunmaq üçün "oksalin" məlhəmini də burun dəliklərinə sürtmək olar.

Xəstəliyin simptomları müşahidə olunan şəxslər öskürərkən və asqırarkən məsafə saxlamalı, ağız və burunu kağız dəsmal və ya dirsək bükümü ilə bağlamalı, dərhal həkimə bildirməli, üzərlərində dezinfeksiya vasitələri gəzdirməli və ondan istifadə etməlidirlər. İnsanların çox olduğu yerlərdə, məsələn, hava limanlarında, metroda və s. ictimai yerlərdə xüsusilə ehtiyatlı olmaq lazımdır. Unutmayaq ki, koronavirusdan qorunmaq öz əlimizdədir.

Yeni növ koronavirus 2019-nCoV təhlükəsinin Azərbaycan ərazisində yayılmasının qarşısının alınması, profilaktik və təxirəsalınmaz tədbirlərin operativ həyata keçirilməsi məqsədilə Nazirlər Kabineti yanında aidiyyəti dövlət orqanlarının və qurumlarının rəhbər şəxslərindən ibarət qərargah yaradılıb. Bütün xəstəxanaların gücləndirilmiş rejimdə işləməsi təmin olunub. Onu da qeyd edim ki, koronavirusla əlaqədar Elmi-Tədqiqat Ağciyər Xəstəlikləri İnstitutu, 1 saylı Kliniki Tibbi Mərkəz və 7 saylı Uşaq infeksion xəstəxanasında xüsusi palatalar ayrılıb. Tibbi Ərazi Bölmələrinin İdarəetmə Birliyinin (TƏBİB) 24 saat fəaliyyət göstərən qaynar xətti fəaliyyətə başlayıb.

Bütün bunlarla yanaşı, epidemiyanın təhlükəli miqyas almağa başladığı ilk gündən Azərbaycanın bütün sərhəd-keçid məntəqələri xüsusi rejimdə fəaliyyət göstərir, onlarda sanitar-dezinfeksiya işləri aparılır. Ayrı-ayrı istiqamətlərdən respublikamıza gələn sərnişinlər ciddi yoxlanılır.

Yeri gəlmişkən, ölkəmizin ərazisindən tranzit yüklərin daşınması üzərində də nəzarət gücləndirilib. Yüklərin ölkəyə girişi və çıxışında əlavə sanitar-dezinfeksiya tədbirlərinin görülməsi diqqət mərkəzində saxlanılır.

Hazırda Astara sərhəd-buraxılış məntəqəsinə yaxın ərazidə Fövqəladə Hallar Nazirliyinin səyyar mobil hospitalı fəaliyyət göstərir. Burada dövlət sərhəd buraxılış məntəqəsini keçən bütün vətəndaşlar müayinə olunurlar. Müayinələr zamanı vətəndaşlarda hər hansı bir xəstəlik aşkar olunarsa, həmin şəxslər təcili tibbi yardım maşınları ilə xüsusi ixtisaslaşdırılmış xəstəxanalara göndərilirlər.

Astara ilə yanaşı, Biləsuvar gömrük-sərhəd buraxılış məntəqəsində də səyyar mobil hospital artıq fəaliyyətə başlayıb.

Nazirlər Kabinetinin "Azərbaycanda yeni koronavirus xəstəliyinin yayılmasının qarşısının alınmasına dair fəaliyyət planı"nda bütün iş yerlərində, eləcə də təhsil müəssisələrində sanitar-epidemioloji vəziyyətin nəzarətə götürülməsi, virus əleyhinə dezinfeksiya edilməsi qarşıya mühüm vəzifə kimi qoyulub. Gigiyena və epidemiologiya mərkəzlərinin mütəxəssisləri tərəfindən maarifləndirici təlimlərin keçirilməsi sistemli xarakter alıb.

Onu da deyim ki, hazırda Azərbaycan Respublikasının Qida Təhlükəsizliyi Agentliyinin (AQTA) regional bölmələri xüsusi hazırlıq vəziyyətinə gətirilməklə gücləndirilmiş iş rejimində işləyir, virusun geniş yayılmaması üçün zəruri və təxirəsalınmaz tədbirlər həyata keçirir. Azərbaycan Qida Təhlükəsizliyi İnstitutunun Analitik Ekspertiza Mərkəzinin nəzdində fəaliyyət göstərən 19 laboratoriyada idxal-ixrac və ölkədə istehsal olunan qida məhsullarının təhlükəsizlik və keyfiyyət göstəriciləri üzrə müayinələr aparılması, baytar-sanitar və fitosanitar təhlükəsizliyin təmin edilməsi gerçəkləşdirilir.

Bu institutun laboratoriyaları 2019-nCoV koronavirusun müayinəsi üçün PZR (Polimeraz Zəncirvarı Reaksiya) dəstləri, fərdi mühafizə və dezinfeksiyaedici vasitələrlə təmin olunub. Eyni zamanda, müvafiq bölmənin əməkdaşları bu xəstəliyin laborator müayinəsi ilə əlaqədar xüsusi təlimlərə cəlb edilib.

Bundan əlavə, 2019-nCoV infeksiyası ilə əlaqədar 3-cü səviyyəli biotəhlükəsizlik mobil səhra laboratoriyası da hazır vəziyyətə gətirilib. Xəstəliyə hər hansı şübhə yaranarsa, dərhal mobil dəstə operativ şəkildə respublikanın istənilən ərazisinə ezam oluna və qısa zaman ərzində müayinələri həyata keçirə bilər.

Ümumiyyətlə, Qida Təhlükəsizliyi İnstitutunun Mərkəzi Baytarlıq Laboratoriyası ölkədə epidemioloji və epizootik sabitliyin qorunması üçün bütün zəruri avadanlıq, vasitə və peşəkar kadrlarla təmin olunub.

Xatırladım ki, Ümumdünya Səhiyyə Təşkilatının eksperti və ABŞ Milli Səhiyyə İnstitutunun virusoloq-həkimi də həmin laboratoriyalarda aparılan müayinələrlə tanış olub və qiymətləndirmə apararkən burada yaradılan şəraiti yüksək dəyərləndirib, müayinələrin yüksək keyfiyyətlə, bütün biotəhlükəsizlik qaydalarına riayət edilərək aparıldığını vurğulayıblar.

Oxucuların diqqətinə çatdırım ki, Qida Təhlükəsizliyi Agentliyi haqlı olaraq, vətəndaşları yoluxucu heyvan xəstəliklərindən qorunmaq və xəstəliklərin yayılmasının qarşısını almaq məqsədilə qida təhlükəsizliyi qaydalarına ciddi şəkildə əməl etməyə və yalnız rəsmi orqanların yaydığı məlumatlara etibar etməyə çağırıb.

***Ləman SÜLEYMANOVA,***
***həkim***

Xalq qəzeti 2020.- 1 mart.- S.5.